# Brüsseldə Azərbaycan diasporu və media mövzusuna həsr edilən konfrans keçirilib





Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi (ATXƏM) Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə Brüssel şəhərində "Avropada diaspor və media lobbiçiliyi" layihəsinin icrasına başlayıb.

Layihə çərçivəsində Avropa Azərbaycanlıları Konqresi (AAK) ilə birgə Brüsseldə "Azərbaycan diasporu və media: əməkdaşlıq səviyyəsi, problemlər və onların həlli yolları" mövzusunda praktik konfrans keçirilib.

Konfransı açan AAK-ın prezidenti, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü Sahil Qasımov Avropada Azərbaycan diasporunun vəziyyəti, görülən işlərlə bağlı məlumat verib. O, AAK-ın fəaliyyət göstərdiyi 15 il ərzində öz ətrafında 100-dən çox təşkilatı birləşdirdiyini, Avropada ciddi layihələr reallaşdırdığını, nüfuzlu şəxslər, parlamentarilər ilə görüşlər təşkil etdiyini, yerli media orqanları ilə əməkdaşlıq həyata keçirdiyini bildirib.

ATXƏM-in sədri, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü İlham İsmayılov bildirib ki, təbliğat işində müasir informasiya texnologiyalarının tətbiqi, sosial şəbəkələrin imkanları azərbaycanlı gəncləri cəlb edən əsas amillərdəndir. Lakin dünyada qlobal səviyyədə informasiya müharibəsinin aparıldığı da yaddan çıxmamalıdır. Doğrudur, Azərbaycanda hökumət səviyyəsində informasiya sahəsində mühüm işlər görülür. Lakin virtual məkanda dünya azərbaycanlılarının həmrəyliyini qorumaq, vahid məkanda fəaliyyəti əlaqələndirmək lazımdır. Bu istiqamətdə ötən dövrdə diaspor təşkilatlarımız tərəfindən müəyyən işlər görülüb. Lakin hələ qarşıda görüləcək işlər də çoxdur. Biz diasporumuzun böyük potensialını səfərbər etməliyik. Bir sözlə, müasir dövrdə informasiya müharibəsində dünya azərbaycanlıları fəallıq nümayiş etdirməlidirlər.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü Əflatun Amaşov "Azərbaycan həqiqətlərinin çatdırılmasında yeni təbliğat üsullarından istifadə və müasir informasiya texnologiyalarının tətbiqi: mövcud təcrübə və perspektivlər" mövzusunda məruzə ilə çıxış edib. O bildirib ki, qarşıda duran əsas vəzifə diasporumuzla mediamızın həmahəng strukturunun yaradılmasıdır. Diaspor təşkilatları ölkəmizlə bağlı təbliğat məsələlərində media üçün bir növ mayak rolunu oynamalıdırlar. Azərbaycan mediası diasporumuzun işinə dəstək verməyə tam hazırdır.

Mətbuat Şurasının sədri Azərbaycan mediasının hazırkı vəziyyəti barədə danışıb.

Sonra Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Qafar Əliyev "Sosial şəbəkələr və Azərbaycan reallıqları həqiqətlərin təbliğinin effektiv vasitələrindən biri kimi" mövzusunda məruzə ilə çıxış edib. O deyib ki, Azərbaycanın həyata keçirdiyi siyasət, uğurlu enerji layihələri nəticəsində bir tərəfdən onun beynəlxalq nüfuzu artırsa, digər tərəfdən ölkəmizi sevməyən qüvvələri narahat edir, onlar tərəfindən ölkəmizə təzyiqlər artır. Erməni lobbisi bir çox təşkilatların nümayəndələrini müxtəlif vasitələrlə ələ alaraq onların hesabatlarında Azərbaycan əleyhinə qərəzli və mənfi yüklü informasiyalar yer almasına çalışır. Beləliklə, biz dünyanın hər yerində Azərbaycan əleyhinə kifayət qədər güclü olan lobbi təşkilatlarının mövcud olduğunu görürük. Azərbaycana qarşı sistem halında fəaliyyət göstərən erməni diaspor təşkilatlarının fəaliyyətinə bir sıra ölkələrin dövlət və bələdiyyə qurumlarında da rast gəlinir. Təəssüf ki, dünyanın müxtəlif ölkələrinə səpələnmiş bəzi soydaşlarımız da həmin ölkələrdə kök salan anti-Azərbaycan qüvvələrin və erməni lobbisinin təsiri altına düşərək Azərbaycan iqtidarının yürütdüyü siyasət ətrafında daim qara pərdə çəkir, mənfi informasiyalar, yalan, şər və böhtan uydurараq dünya ictimaiyyətini çaşdırır.

Azərbaycanın Belçikadakı səfiri, Avropa İttifaqı yanında nümayəndəliyinin rəhbəri Fuad İsgəndərov bildirib ki, bu gün Azərbaycan Avropada önəmli tərəfdaş kimi qəbul olunur. Təbii ki, bu işdə diaspor təşkilatlarının da rolu var. Yerli ictimai və media qurumları ilə əməkdaşlıq daha da güclənməlidir. Xüsusilə Avropa ölkələrinin regionlarında işlər görülməlidir. Bizim ortaq fəaliyyətimiz nəticəsində Belçikanın regionlarında Qarabağ atına, Azərbaycan şairəsi Xurşidbanu Natəvana heykəl qoyulub. Belə nümunələri artırmalıyıq.

Azərbaycan Türkiyə Evinin rəhbəri Tənzilə Rüstəmxanlı deyib ki, diaspor təşkilatlarımız arasında birliyin möhkəmləndirilməsi çox vacibdir. Bir çox hallarda biz ümumi işlərimizə kölgə salan insanlara da rast gəlirik. Çalışmalıyıq ki, onlar öz fəaliyyətlərindən əl çəksinlər. Bu məsələdə də mediaya ciddi ehtiyacımız var.

Daha sonra çıxış edən jurnalist Elnaz Agahkan, Real TV-nin Avropa bürosunun əməkdaşı Xatirə Abdullazadə, AAK-ın vitse-prezidenti Rövşən Tağıyev, "Ustad" jurnalının baş redaktoru Şəmil Sadiq, "Birlik" jurnalının baş redaktoru İlqar İlkin və başqaları diaspor təşkilatları ilə media qurumları arasında əlaqələrin inkişaf etdirilməsi üçün təkliflərini səsləndiriblər. Konfransın sonunda iştirakçılar adından müraciət qəbul olunub.

Yeni Azərbaycan.-2019.-7 noyabr.- S.4.